


# Xəzərin statusu: sülh və əməkdaşlıq dənizi

*Xəzər hövzəsinin geosiyasi əhəmiyyəti tarixən yüksək qiymətləndirilib və onun statusu uzun illər mübahisəli məsələ kimi bir çox elmi araşdırmaların mövzusu olub. Araşdırmalar əsasən problemin yaranma tarixi və inkişafı, Xəzəryanı və digər dövlətlərin maraqları, mövqeləri, geosiyasi-iqtisadi təsirlər, bu problemin həllinə dair təkliflərlə bağlı yanlış aparılıb. Sovet İttifaqının süqutundan sonra Xəzər regionundakı vəziyyət radikal şəkildə dəyişdi.*

## *12 fevral 2019-cu ildə Prezident İlham Əliyev "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanı təsdiq edib*

1920-ci ildən 1991-ci ilədək Xəzər dənizinə yalnız iki dövlət - Sovet İttifaqı və İran çıxış hüququna malik idi və dənizin hüquqi statusu bu iki ölkə arasında imzalanmış müqavilələrlə müəyyənləşdirilirdi. Yeni müstəqil sahilyanı dövlətlərin yaranması balıqçılıq, dəniz təkinin kəşfiyyatı, hövzənin və onun enerji resurslarının istismarı ilə bağlı bir sıra hüquqi çətinliklərin və sərhəd problemlərinin ortaya çıxmasına səbəb oldu. 1996-cı ildə sahilyanı dövlətlər tərəfindən ikitərəfli və çoxtərəfli görüşlərdə Xəzərin hüquqi statusu məsələsi ilə bağlı müzakirə və danışıqlar başlandı. Müzakirələr də göstərdi ki, Xəzərin hüquqi statusu məsələsinə hər bir dövlət fərqli yanaşır və daha çox beynəlxalq hüquq normalarına deyil, milli maraqlara söykənir.

İran Xəzərin bölünməsini göl prinsipi üzrə - yəni hər bir ölkəyə bərabər pay verilməsi qaydasını təklif edirdi. Digər 4 ölkə isə dəniz prinsipi üzrə müəyyən məsafədə hər bir ölkənin sektorlarının dəqiqləşdirilməsini, dənizin ortasının isə ümumi istifadəyə verilməsini təklif edirdi. Keçən müddət ərzində Azərbaycan, Qazaxıstan, Rusiya, həmçinin, Qazaxıstan və Türkmənistan öz aralarında dənizin şimal hissəsinin orta xətt prinsipi ilə bölünməsini razılaşdırdılar. Xəzəryanı ölkələrin hər birinin bu məsələ ilə bağlı öz mövqeyi var idi. 22 il ərzində 5 sammit keçirildi. Nəhayət ki, Xəzərin dibinin dəniz, suyunun isə göl kimi bölünməsi razılaşdırıldı. Bu, Xəzəryanı ölkələr arasında əməkdaşlıq üçün, eyni zamanda Xəzər dənizində daşınmalar üzrə daha çox imkan yaratdı.

Beləliklə, 12 avqust 2018-ci il tarixdə Aktau şəhərində beş dövlətin başçılarının V Zirvə toplantısında "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya və bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər imzalandı. Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri iştirak etdilər. Müqavilə tərəflərə resursları bölüşdürmək üçün yol xəritəsi müəyyənləşdirmək və digər qüvvələrin orada hərbi birlik yaratmasına mane olmaq imkanı verirdi.

**(davamı 3-cü səhifədə)**



# Xəzərin statusu: sülh və əməkdaşlıq dənizi



## 12 fevral 2019-cu ildə Prezident İlham Əliyev "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanı təsdiq edib

(əvvəli 1-ci səhifədə)

Zirvə toplantısının yekununda beş ölkənin dövlət başçıları - İlham Əliyev, Vladimir Putin, Nursultan Nazarbayev, Həsən Ruhani və Qurbanqulı Berdiməhəmmədov öz imzaları ilə Xəzər dənizinin hüquqi statusunu müəyyən edən sənədi təsdiq etdilər. Prezidentlər mətbuat üçün bəyanatlarında müzakirə edilən əsas məsələlər arasında Xəzərin hüquqi statusu, bu bölgədə iqtisadiyyat, nəqliyyat, ekologiya və bioresursların qorunmasına dair əməkdaşlıq, bölgədə və qlobal miqyasda təhlükəsizlik kimi məsələləri vurğuladılar. Azərbaycan tərəfi uzun illər ərzində Xəzərin beynəlxalq hüquqi normalar çərçivəsində ədalətli bölgüsünü və "qazan-qazan" prinsipini təklif etsə də, müəyyən süni maneələr yekun statusla bağlı razılaşma əldə edilməsinə imkan vermirdi. Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən Konvensiyadan irəli gələn digər mühüm sənədlər - Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol, Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş, Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş, Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş, sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol imzalandı.

Xəzər dənizinin hüquqi statusunu müəyyən edən konvensiya bütün məsələləri həll etməsə də, ümumi yanaşma baxımından çox önəmlidir və Azərbaycanın illər boyunca irəli sürdüyü mövqe ilə üst-üstə düşür. Bakı-Tbilisi-Qars dəmir yolunun davamı olan Xəzər dənizində tranzit nəqliyyat imkanlarının artması Azərbaycanın əlavə iqtisadi maraqlarının təmin olunması anlamına gəlir. Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında bu dənizin hüquqi statusuna dair Konvensiyanın imzalanması tarixi hadisədir. Xəzərin hüquqi statusu barədə Konvensiyanın imzalanması ilə bağlı keçirilən görüşlər, aparılan danışıqlar nəhayət, məntiqi sonluqla yekunlaşdı. Konvensiya uzun illərdir Xəzər hövzəsindəki mövcud ziddiyyətli məqamlara son qoydu, yeni əməkdaşlıq platforması yaratdı. Sözügedən konvensiyanın imzalanması ilə Xəzər sabitlik və əməkdaşlıq dənizinə çevrildi. 12 fevral 2019-cu ildə Prezident İlham Əliyev "Xəzər dənizinin hüquqi statusu haqqında" 2018-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış Konvensiyanı təsdiq edib. Fevralın 22-də "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.

"Xəzəryanı ölkələr arasında yüksək səviyyədə əməkdaşlıq, etimad və qarşılıqlı fəaliyyət mövcuddur və bu da təhlükəsizliyin və sabitliyin başlıca qarantıdır. Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib", - söyləyən Prezident İlham Əliyev xüsusi olaraq vurğulayıb ki, Konvensiya Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli, xalqların həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır.

Qazaxıstanın prezidenti bu konvensiyaya "Xəzərin konstitusiyası" adını verdi və bununla da buradakı bütün mübahisəli məsələlərin aradan qaldırıldığını elan etdi. Konvensiyaya görə, hər bir dövlət Xəzər sahilindən 12 mil məsafəyə sahib olacaq. Bundan başqa, sahil dövlətləri 10 mil məsafədə balıq tutma hüququna malikdirlər. Qalan ərazilər isə ümumi istifadədə olacaq. Konvensiyaya görə, ölkələr razılığa gəlsələr, Xəzərin dibi ilə boru xətləri çəkilə bilər. Lakin bu barədə qonşu ölkələri xəbərdar etməli və heç bir halda dənizin ekologiyasına zərər vurulmamalıdır. Digər maraqlı məqam isə "üçüncü tərəf", yəni ABŞ və NATO kimi hegemon güclərin Xəzərdə varlığı ilə əlaqədardır. Hazırda ABŞ İran və Rusiyaya qarşı sanksiyalar tətbiq edir. Konvensiyaya görə, bu halda Xəzərsahili ölkələr ABŞ-ın hərbi gəmilərinin dənizə çıxışına imkan verməyəcək. Yəni "Xəzərdə başqa dövlətlərin hərbi gəmilərinin olmaması" bəndi Konvensiyaya salındı. Bu bəndin qəbul olunmasında daha çox maraqlı tərəf Rusiya və İran idi.

Konvensiyaya görə, Xəzər dənizinin dibi və torpaqaltı bölgələri fərqli sahələrə ayrılıb. Dənizin səthi isə dəniz sahəsi, dəniz sərhədi, balıqçılıq sahələri və resursların istifadəsi kimi kateqoriyalara əsasən bölüşdürülüb. Xəzəryanı ölkələrin əməkdaşlıq prinsiplərini, hüquqi məsuliyyətlərini ehtiva edən və beş dövlət üçün bərabər şərtlər gətirdiyi vurğulanan layihəyə görə, Xəzərin dibi yan-yana və qarşı-qarşıya olan ölkələr arasında bölgələrə paylanır. Konvensiyanın ən önəmli cəhətlərindən biri, sənəddə 5 sahilyanı dövlətin qarşılıqlı olaraq bir-birinin suverenliyinə, ərazi bütövlüyünə, dövlətlərin suveren bərabərliyinə hörmətlə yanaşmalarının, güc işlətməyin və güclə təhdid etməyin yolverilməz olmasının, əməkdaşlığın, qarşılıqlı hörmətin, bir-birinin daxili işlərinə qarışmamağın əsas müddəalardan biri kimi və həm də bütün prinsiplərdən öndə yer almasıdır. Bu amil Konvensiyanın önəmini daha da artırır. Digər tərəfdən Xəzərin hüquqi statusu haqqında Konvensiya dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin alternativsiz olaraq yer aldığı beynəlxalq hüquqi statusu olan sənəd kimi olduqca mühüm və bəlkə də tarixi əhəmiyyətə malikdir.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində və yekun sənədin hazırlanmasında Azərbaycan önəmli rol oynayıb. Azərbaycan uzun illərdir Xəzər hövzəsindən hasil etdiyi enerji resurslarını Avropaya ixrac edir. XXI əsrin layihəsi adlandırılan və dünyanın enerji xəritəsini dəyişən Cənub Qaz Dəhlizi layihəsinin əsas təbii qaz mənbəyi "Şahdəniz" qaz-kondensat yatağıdır. Ölkəmizin sahib olduğu enerji resursları milli maraqlarımıza, xalqımızın mənafeyinə uyğun istifadə olunmaqla, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm yer tutur. Bununla yanaşı, Xəzərdə daha çox neft-qaz yataqlarının kəşf olunacağı da mümkün proqnozlar sırasındadır. Digər mühüm bir məqam Konvensiyanın beynəlxalq yükdaşımalarda Xəzəryanı ölkələrin rolunu daha da artırması perspektividir. Cənab Prezident Zirvə toplantısında çıxışı zamanı vurğulayıb ki, Azərbaycanın öz tranzit xidmətlərini təqdim etdiyi Şərq-Qərb və Şimal-Cənub dəhlizləri iqtisadi əməkdaşlığı möhkəmləndirən, yeni iş yerləri yaradan, ölkələri bir-birinə yaxınlaşdıran, sabitlik və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradan layihələrdir.

Ekspertlər hesab edirlər ki, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması 5 sahil ölkəsi üçün dönüş nöqtəsidir. Bütün ölkələr, xüsusən, Azərbaycan konvensiyadan daha çox iqtisadi fayda əldə edəcək. Xəzərin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına daşınması üçün dənizin dibindən kəmərlər çəkilməsi üzərində maneə aradan qaldırılıb. Azərbaycan hüquqi statusla bağlı danışıqların getdiyi bütün dövr ərzində beynəlxalq hüquqa və qarşılıqlı etimada söykənən milli mənafelərini müdafiə edib və digər qonşu ölkələr də xoş məram nümayiş etdirərək Azərbaycanın milli maraqlarının müdafiəsi qarşısında müəyyən güzəştlərə gediblər.

Prezident İlham Əliyev konvensiyanın imzalanmasından sonra təşkil olunan birgə mətbuat konfrasında çıxışı zamanı qeyd edib ki, Azərbaycan Xəzərdə ekoloji vəziyyətin yaxşılaşmasına böyük töhfə verir, görülən tədbirlər, xüsusən neft-qaz əməliyyatlarının həyata keçirildiyi zaman dənizin çirklənməsinin qarşısının alınmasına hədəflənib. Azərbaycan mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf və sabitlik zonasına çevrilsin.

Bütün bunlar bir daha göstərir ki, Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlərin bağlanması, Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətlərinin mövcud olması, həmçinin onların BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin əsasını təşkil edən mühüm faktorlardır, eləcə də Xəzəryanı dövlətlər arasında dayanıqlı münasibətləri təmin edən amillərdir. Lakin o da bəllidir ki, sözügedən qarşılıqlı fəaliyyətin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Xəzər dənizinin strateji əhəmiyyəti onun region xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsi olması ilə əlaqəlidir.

**Mustafa KAMAL,**
**"Respublika".**